# Gəncədə Mir Cəlal Paşayevin xatirəsi yad edildi





Azərbaycan nəsrinin görkəmli nümayəndəsi, Əməkdar Elm xadimi, yazıçı-alim Mir Cəlal Əli oğlu Paşayevin anadan olmasının 108 illiyi onun adını daşıyaraq möhtəşəm muzeydə yüksək təntənə ilə qeyd olunmuşdur. Tədbirdə İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev, Azərbaycan Milli Aviasiya Akademiyasının hüquq kafedrasının müdiri, hüquq elmləri üzrə Dissertasiya Şurasının sədri, professor İbrahim Quliyev, şəhər fəalları, elm xadimləri, mədəniyyət və incəsənət işçiləri və qonaqlar iştirak edirdilər. Tədbiri giriş sözü ilə açan şəhər rəhbəri Elmar Vəliyev çıxış edərək bildirdi ki, XX əsrin 20-30-cu illərində ədəbi yaradıcılığa başlayan yazıçı Mir Cəlal Paşayev müasir Azərbaycan ədəbiyyatının bünövrəsini qoyan görkəmli şəxsiyyətlərdən biridir. Onun mənalı həyatının müəyyən dövrü Gəncə ədəbi mühiti ilə bağlıdır. Mir Cəlal Paşayev elmi-pedaqoji kadrların hazırlanmasında əvəzsiz xidmətlər göstərmiş, dəyərli əsərləri ilə ədəbi-mədəni irsimizə layiqli töhfələr vermişdir. Onu xüsusilə qeyd etmək lazımdır ki, XX əsr Azərbaycan ədəbiyyatında, elmində müstəsna xidmətlər göstərən Mir Cəlal Paşayevin 100 illiyinin UNESCO səviyyəsində qeyd olunması, ilk növbədə, Azərbaycan elminə, mədəniyyətinə və ədəbiyyatına dünya miqyasında verilən önəmin və dəyərin təzahürüdür. Bəli, bu gün böyük alim, istedadlı yazıçı və görkəmli pedaqoq Mir Cəlal Paşayevin bizdən cismən ayrılaraq əbədiyyətə qovuşmasından 38 il keçir. İllər ötdükcə mənalı həyatını Azərbaycan xalqının maariflənməsinə, elmimizin və ədəbiyyatımızın inkişafına sərf etmiş bu ensiklopedik biliyə malik insanın təkcə elmi irsi tədqiq edilmir, onun həm də xeyirxahlığı, ümumbəşəri ideyaları heyranlıqla qarşılanır və əsl örnək kimi sevilə-sevilə qəlblərdə özünə ucalıq, əlçatmazlıq heykəli qurur.

Azərbaycan Milli Aviasiya Akademiyasının hüquq kafedrasının müdiri, hüquq elmləri üzrə Dissertasiya Şurasının sədri, professor İbrahim Quliyev görkəmli yazıçı Mir Cəlal Paşayevin həyat salnaməsindən geniş danışaraq, bildirdi ki, məhz 2008-2009-cu illərdə UNESCO-nun dünya miqyaslı hadisələrin və şəxsiyyətlərin yubileylərinin qeyd olunması ilə bağlı qərarına Mir Cəlal Paşayevin də adının daxil edilməsi, həm də Azərbaycan-UNESCO əməkdaşlığının inkişafının bariz nümunəsidir. Onun xatirəsinin əbədiləşdirilməsi sahəsində ulu öndər Heydər Əliyevin ənənələrini yaşadan şəhər rəhbərliyinin fəaliyyətini yüksək qiymətləndirən natiq, ədibin ailə üzvləri adından bu diqqət və qayğıya görə dərin minnətdarlığını ifadə etdi. Eyni zamanda Mir Cəlal Paşayevin adını daşıyan 39 saylı məktəbin, onun adına tarixi eksponatlarla zəngin, müasir tipli muzey yaradılmasının, Gəncənin ən yaraşıqlı küçələrindən birinə adının verilməsinin gəncəlilərin yazıçıya olan sonsuz sevgi və məhəbbətinin təzahürü olduğunu birmənalı qeyd etdi. Bu gün təkcə Azərbaycanda deyil, onun sərhədlərindən kənarda da bu böyük ədibin həyat və yaradıcılığı geniş şəkildə öyrənilir və əsərləri çap olunaraq maraqla oxunur. Böyük şəxsiyyət kimi tarixləşmiş, gözəl müəllim, görkəmli yazıçı, istedadlı ədəbiyyatşünas Mir Cəlal Paşayevin xatirəsi daim qəlblərdə yaşayacaq, ədəbiyyatımızın, ədəbiyyatşünaslığımızın əbədi mövzusu olacaqdır.

Rəsmi hissədən sonra bədii rəhbər və dirijor, Azərbaycan Respublikasının əməkdar artisti Rafael Bayramov, konsertmeyster, Azərbaycan Respublikasının əməkdar artisti Zərinə Allahverdiyevanın iştirakı ilə Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasının Kamera Orkestrinin geniş proqramla konserti olmuşdur.

**Zabit XƏLİLOV,**
**"Respublika".**